# “Gabala Hospitality Group” xüsusi tədbir



2020-ci ildə 44 gün davam edən Vətən Müharibəsində qazanılan tarixi qələbənin şərəfinə qeyd olunan 8 Noyabr - Zəfər Günü münasibətilə “Gabala Hospitality Group” Heydər Əliyev Konqres Mərkəzində xüsusi tədbir təşkil etmişdi. Tədbirdə qrupda çalışan əməkdaşlardan müharibə iştirakçıları və onların ailə üzvləri iştirak etdilər. Tədbirin rəsmi hissəsinə başlamazdan öncə iştirakçılar Şəhidlər Xiyabanını ziyarət edərək, Vətən uğrunda canını fəda etmiş şəhidlərimizin məzarlarını ehtiramla ziyarət etdilər. Onlar hər bir şəhidin məzarı üzərinə qərənfil qoyaraq, şəhidlərimizin göstərdikləri böyük qəhrəmanlıq və vətənpərvərlik ruhunu yad etdilər. Sonra Ulu Öndər Heydər Əliyevin büstü önünə əklil qoyaraq, onun irsini və göstərdiyi uzaqgörən rəhbərliyi dərin hörmətlə andılar. Ziyarətdən sonra tədbirin açılışına keçid alındı. “Gabala Hospitality Group”un Baş İcraçı Direktoru Şəbnəm Fərman çıxış edərək, Vətən Müharibəsində iştirak etmiş əməkdaşlara göstərilən diqqət və qayğının əhəmiyyətini vurğuladı və onlara fədakarlıqlarına görə dərin təşəkkürünü ifadə etdi: "...Vətən uğrunda mübarizə aparmış müharibə iştirakçılarımız bizim üçün daim qürur mənbəyidir. Zəfər Gününü qeyd edərkən, biz yalnız qələbəmizi deyil, eyni zamanda birliyimizi və gücümüzü də yad edirik.” Daha sonra qrupa daxil olan şirkətlərin rəhbərləri çıxış edərək, Vətən Müharibəsində iştirak etmiş əməkdaşlara dərin minnətdarlıqlarını ifadə etdilər.

# Sənə Zəfər yaraşır, Azərbaycan!

20 oktyabr- 20 noyabr “Uşaq hüquqları aylığı” çərçivəsində uşaqların yaradıcılıq potensialının inkişaf etdirilməsi, onların vətənpərvərlik ruhunda tərbiyə olunması və həmçinin Zəfər gününə həsr olunmuş "Sənə Zəfər yaraşır, Azərbaycan!" adlı bədii qiraət və rəsm müsabiqəsi keçirilib. Qəbələ rayon Mədəniyyət Mərkəzində keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Çıxış edənlər Vətən müharibəsində qazanılan möhtəşəm Qələbənin Müzəffər Ali Baş Komandan ilham Əliyevin əzmkarlığının, xalqımızın birliyinin, həmrəyliyinin, rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin misilsiz qəhrəmanlıqlarının qələbəsi olduğunu iftixar hissi ilə vurğulamış və qəhrəman şəhidlərimizin keçdiyi şərəfli döyüş yollarından, göstərdikləri şücaətlərdən bəhs etmişlər. Müsabiqədə müxtəlif yaş qruplarından olan uşaqların vətənpərvərlik mövzusunda çıxışları səsləndirilmiş və rəsm işləri nümayiş etdirilmişdir. Sonda müsabiqə iştirakçılarına Mədəniyyət Mərkəzinin diplom" və Fəxri fərmanları təqdim olunmuşdur.



# Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində bayram tədbiri

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin təşkilatçılığı ilə Zəfər günü bayram tədbiri keçirilmişdir. İlk öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçərək şəhadətə ucalmış şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Çıxış edən mərkəzin direktoru Qalib Nəbiyev Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində böyük Zəfərin əldə olunmasında misilsiz xidmətlər göstərdiyini, xalqımızın qəhrəmanlığının heç zaman unudulmayacağını vurğulamış, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət siyasətinin hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini diqqətə çatdırmışdır. Sonda mərkəzin tələbələri tərəfindən şeir kompozisiyaları səsləndirilmiş və Zəfər Gününə həsr olunmuş video-çarxlar nümayiş olunmuşdur.



# Azərbaycan bayramı

Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Zəfər günün mübarək anam Azərbaycanım" adlı tədbir keçirilib. Öncə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçərək şəhadətə ucalmış şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər İkinci Qarabağ Müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və şanlı ordumuzun şücaəti ilə Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsinin tarixindən, dəmir yumruq kimi birləşən ordu-xalq birliyindən, əsgərlərimizin rəşadətindən söhbət açaraq, aparılan uğurlu daxili və xarici siyasət strategiyasının Azərbaycanın nüfuzunu beynəlxalq arenada daha da artırdığını bildirmişlər.



# Rayon ümumtəhsil müəssisələrində



Qəbələ rayonunun ümumtəhsil müəssisələrində Zəfər günü ərəfəsində silsilə tədbirlər keçirilir və Vətən müharibəsi şəhidlərinin ailələri ziyarət edilir. Şəhər 3 nömrəli və Vəndam qəsəbə 3 nömrəli tam orta məktəbin keçirdiyi tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti, Alı Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsində Ordumuzun əsgər və zabitlərinin şərəfli döyüş yolundan bəhs edilmiş, qazanılmış tarixi Qələbədən danışılmış, şagirdlərin ifasında vətənpərvərlik mövzusunda, Qələbəni təmsil edən şeirlər və musiqilər səslənmişdir.


**QƏBƏLƏ qəzetinə**

**2025-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


# İntellektual yarış

Gənclərin İnkişaf və Karyera Mərkəzi Dağlıq Şirvan regional nümayəndəliyinin Qəbələ bölməsininin və Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş intellektual yarış keçirilib. Öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçərək şəhadətə ucalmış şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.14 komanda arasında keçirilən yarışda 44 günlük Vətən müharibəsi, Milli Qəhrəmanlarımız və Qarabağın tarixinə dair suallar cavablandırılıb. Yarışın nəticələrinə görə “Xocalı” komandası I yeri, “Zəngilan” komandası II yeri, “Polad Həşimov” komandası III yeri tutub. Sonda qaliblərə sertifikatlar təqdim edilib.

# İTMİŞDİR

Qəbələ rayon Nohurqışlaq kənd sakini **Məmmədov Niyaməddin Nurəddin oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.


Redaktor Azad Məmmədov.

*TƏSİSÇİ:* Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində “Azərmedia” MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1050*